**“Qrant alınmasına (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması Qaydalarının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 27 nömrəli Fərmanının ləğv edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Qrant alınmasına (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması Qaydalarının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 27 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 2, maddə 65; 2009, 12, maddə 988; 2014, 5, maddə 477) 2014-cü il noyabrın 1-dən ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində qrant alınmasına (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

~~3. Bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş qaydalar 2014-cü il noyabrın 1-dən qüvvəyə minsin.~~ [1]

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyul 2014-cü il
240

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 14 noyabr 2014-cü il tarixli **346** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 15 noyabr 2014-cü il, 249; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1386)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 14 noyabr 2014-cü il tarixli **346** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 15 noyabr 2014-cü il, 249; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1386)** ilə 3-cü hissə ləğv edilmişdir.